# QARA YANVAR

**1990**-cı ilin 20 Yanvarı keçmiş sovet rəhbərliyinin və onun yerli havadarlarının əli ilə xalqımıza qarşı qanlı faciə törədilmişdir.

Keçmiş kommunist rejimini nəyin bahasına olursa-olsun saxlamağa çalışan imperiya bütün hərbi maşınlarını işə salaraq öz milli azadlıqlarını və istiqlaliyyətini qorumağa çalışan xalqımıza qarşı açıq silahlı təcavüzə başladı.

Bakının küçə və meydanları günahsız insanların qanına boyandı. Bu, tarixdə görünməmiş bir vəhşilik idi. Sovet imperiyası xalqımızın tarixinə ən faciəvi bir səhifə yazdı.

Lakin 20 Yanvar faciəsi Azərbaycan xalqının iradəsini, azadlıq eşqini söndürə bilmədi.

Həmin gün yurdumuzun tarixinə şərəfli bir gün kimi daxil olmuşdur.

Xalqımızın azadlığı və müstəqilliyi uğrunda canından keçməyə hazır olan vətən oğullarımız zirehli texnikanın tırtılları altında qalıb məhv olmağı boyunduruqda yaşamaqdan üstün tutdular.

O müdhiş gecə heç vaxt insanların xatirindən çıxmayacaq. O elə bir gecə idi ki, Azərbaycan xalqının müqəddəratı həll olunurdu. Şəhid oğlanlarımıza gəldikdə isə onları heç kim çağırmayıb - ordunun, tankların qabağına öz vicdanlarının səsi ilə çıxıblar. Bu yolda ölüm də olduğunu bilə-bilə!

Torpaq öz oğlunu sınadı. Şəhid oğullarımız bu sınaqdan mərdliklə çıxdılar. 20 Yanvar faciəsi tariximizə qanlı bir səhifə yazdı. Bu faciə nəticəsində neçə-neçə analarımız oğulsuz, bacılarımız qardaşsız, gəlinlərimiz dul qaldı. Neçə-neçə körpələrimiz ata nisgili ilə, ata həsrəti ilə böyüməli oldu. Bütün bunlara baxmayaraq onlar şəhidlik zirvəsinə yüksələrək tariximizə mərdlik, qəhrəmanlıq səhifəsi yazdılar.

1989-cu ilin 30 iyununda İlham ilə Fərizə ailə qurarkən heç ağıllarına belə gətirməzdilər ki, onların bu toy günləri Azərbaycan xalqının ən sevimli bayramlarından biri - sevgililər günü kimi qeyd olunacaq. Bu günün tarixini isə hamı çox gözəl bilir - yaşlı nəsillər də, gənc nəsillər də.

20 Yanvar faciəsi bir çox ailələr kimi İlhamgilin ailəsinə də böyük fəlakət gətirdi. Bu ailənin faciəsi daha böyük, daha acı oldu.

Həmin gecə İlham şəhid oldu, Fərizə isə bu faciənin ağırlığına dözməyib özünə qəsd etdi. Dastanlarda, rəvayətlərdə rastlaşdığımız ölməz məhəbbət əfsanəsinin canlı şahidlərinə çevirdi bizləri İlham ilə Fərizənin nakam məhəbbəti.

Şəhidlər xiyabanı xalqımızın and yeri, inam yeri oldu. Yeni ailə quran gənclərimiz gəlib şəhidlərimizin qəbri üstünə ehtiramla gül qoyurlar. Oğullarımız şəhidlərimizin qəbri qarşısında dayanıb onlar kimi, mərd, igid olmağa söz verirlər. Qızlarımız isə Fərizə kimi sədaqətli, etibarlı olmağa and içirlər. Bax, şəhidlər xiyabanı bizim üçün belə bir məbədgahdır. Valideynlər övladlarının əlindən tutub Şəhidlər xiyabanına gətirir, şəhidlərin qəhrəmanlıqları barədə onlara danışırlar. Bizim körpə balalarımız bu ruhda tərbiyə olunur. Kim bilir indi həmin söhbətləri nağıl, əfsanə hesab eləyən həmin körpələrimiz bəlkə də gələcəyin qəhrəman övladları, milli qəhrəmanları olacaqlar.

20 Yanvar faciəsi Azərbaycan xalqının müstəqillik, azadlıq, suverenlik uğrunda apardıqları mübarizənin ən şanlı mərhələsidir. Ümummilli liderimiz, ölməz siyasətçi Heydər Əliyev qeyd etmişdir: "Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu göstərdi. Vətənin azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış vətən oğullarının fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

Yanvarın 20-də və ondan sonrakı günlərdə Bakı şəhərində daha 21 nəfər öldürüldü. Fövqəladə vəziyyətin elan olunduğu rayonlarda - yanvarın 25-də Neftçalada,



yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdi.

Beləliklə, faciədə Bakıda və respublikanın rayonlarında 131 nəfər öldürülmüşdür, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur.

20 Yanvar faciəsi ümummilli liderimiz, dahi öndərimiz Heydər Əliyevin gərgin əməyi və nüfuzu nəticəsində 1994-cü ildə öz siyasi qiymətini aldı.

Kürdəmir rayonunun 80 nəfərdən çox şəhidi və onlarla itkin düşəni var. Yanvarın 20-də bütün kürdəmirlilər rayonumuzdakı şəhidlər xiyabanına gedir, onların qəbirlərini ziyarət edərək məzarları üzərinə gül-çiçək dəstələri qoyur, ruhlarına dualar oxuyurlar.

Kürdəmir rayonunun rəhbərliyi müntəzəm olaraq şəhid ailələri ilə görüşür, onların problemləri ilə maraqlanır, onlara həm maddi və həm də mənəvi yardımlar edirlər. Hər il yanvarın 20-də rayon rəhbərliyi tərəfindən 20 Yanvar faciəsi qurbanlarının ruhlarına ehsanlar verilir. Rayonumuzdakı bütün şəhid ailələri müntəzəm olaraq rayon rəhbərliyinin diqqəti və qayğısı ilə əhatə olunmuşdur.

Kürdəmir Rayon Mədəniyyət Şöbəsinin rəhbərliyi "Qan yaddaşımız 20 Yanvar" adlı 20 Yanvar faciəsinin 15-ci ildönümünə həsr edilmiş silsilə tədbirlər təşkil etmişlər və həmin tədbirləri rayonun bütün mədəni-maarif müəssisələri ilə birlikdə həyata keçirir.

Kürdəmir Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində və onun 63 filialında, Kürdəmir Rayon Mədəniyyət Şöbəsində, kənd mədəniyyət evləri və klublarında 20 Yanvar faciəsi ilə bağlı "Kürdəmir şəhidləri", "Şəhidlər", "Qara Yanvar", "Qan yaddaşımız", "Torpaq - uğrunda ölən varsa, vətəndir" və sair başlıqlı daimi sərgilər və guşələr vardır.

Kürdəmir Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi şəhid İlqar Nuriyevin adını daşıyır. MKS-in kollektivi onun xanımı ilə bir neçə dəfə görüşmüşlər.

Kürdəmir Rayon MKS-də 20 Yanvar faciəsi ilə bağlı "Azadlığa gedən yol" adlı tədbir keçirilmişdir. Tədbiri Kürdəmir Rayon Mədəniyyət Şöbəsinin müdiri Vaqif Alıyev açaraq 20 Yanvar faciəsi və onun baş verməsəbəbləri barədə geniş məruzə ilə çıxış etmişdir. Məruzə ətrafında Kürdəmir Rayon Mədəniyyət Şöbəsinin müfəttişi İslam Bağırov, Rayon MKS-in direktoru Şahalı Şıxəliyev, MKS-in direktor müavini İradə Mahmudova, Kürdəmir Dövlət Rəsm Qalereyasının direktoru İlqar Muradov, MKS-in xidmət şöbəsinin müdiri Aida Hidayətova və b. çıxış etmişlər.

Tədbirdə məktəblilər 20 Yanvar faciəsinə və şəhidlərə həsr edilmiş şerlər söyləmişlər.

Rayonun Köhünlü, Qarasaqqal, Qarabulaq, Cərtəəz, Yenikənd kənd və sair mədəniyyət evlərində, Cəyli, Qocalı və sair klublarda 20 Yanvar faciəsi ilə bağlı tədbirlər keçirilmişdir.

Kürdəmir Rayon Köhünlü kənd mədəniyyət evində 1990-cı ildə həlak olmuş bütün şəhidlərin şəkillərindən ibarət fotostend və albomlar vardır. Buraya gələn hər kəs mədəniyyət evinin işçiləri tərəfindən 20 Yanvar faciəsinin 15-ci ildönümü ilə bağlı istədikləri məlumatları ala bilərlər.

Mədəniyyət evi Köhünlü kənd məktəbində Rafiq Səməndərin "Şəhidlər" kitabının müzakirəsini keçirməyi nəzərdə tutmuşdur.

Kürdəmir Dövlət Rəsm Qalereyasında 20 Yanvar faciəsinin 15-ci ildönümü ilə əlaqədar plakatlardan və əl işlərindən ibarət sərgilər açılmışdır. Sərgilərdə Kürdəmir Dövlət Rəsm Qalereyasının direktoru İlqar Muradovun "Kürdəmir şəhidləri", "20 Yanvar faciəsi" əsərləri, eyni zamanda rayon məktəblilərinin 20 Yanvar faciəsi ilə əlaqədar əl işlərindən ibarət rəsmlər nümayiş olunur.

**Məryam Əliyeva,**
Kürdəmir Rayon MKS-in metodika şöbəsinin baş kitabxanaçısı